

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 84 (21.745)

4 may 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymini qəbul edib.

İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrin xarici siyasətimizin mühüm bir hissəsini təşkil etdiyini və Azərbaycanın bu təşkilatın çox fəal üzvü olduğunu vurğulayan Prezident İlham Əliyev son illərdə ölkəmizdə bu qurumun fəaliyyəti ilə bağlı nazirlər səviyyəsində bir sıra əhəmiyyətli tədbirlərin keçirildiyini qeyd edib.

Prezident İlham Əliyev bildirib ki, bu ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması və yaxın günlərdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi müsəlman ölkələri və xalqları arasında birliyi daha da gücləndirəcək.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin Azərbaycanda keçiriləcək İslam Həmrəyliyi Oyunlarını çox önəmli beynəlxalq idman tədbiri kimi dəyərləndirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Mali Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Tiefinq Konatenin etimadnaməsini qəbul edib.



2017-ci il mayın 2-də Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı olmuşdur. Ümumi yığıncaqda Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri seçilmişlər.

Naxçıvan Muxtar Respublikasından kimya üzrə Əliyev Tofiq Abbasəli oğlu və psixologiya üzrə Həsənli Oruc Qafar oğlu Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri seçilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Beynəlxalq Şahmat Federasiyasının prezidenti ilə görüşüb



Mayın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov ilə görüşüb.

Ali Məclisin Sədri qonağı Naxçıvanda görməkdən məmnunluğunu bildirib, muxtar respublikada şahmatın inkişafı sahəsində görülən işlərdən danışıb. Muxtar respublikanın ümumtəhsil məktəblərində şahmatın tədris edildiyini və 3 mindən artıq gəncin şahmatla mütəmadi məşğul olduğunu diqqətə çatdıran Ali Məclisin Sədri "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının açılış mərasimində iştirakına görə Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinova təşəkkür edib.

Muxtar respublikada şahmatın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin və gənc şahmatçıların yetişdirilməsi sahəsində görülən işlərin məmnunluq doğurduğunu bildirən Kirsan İlümjinov hər il ənənəvi olaraq Naxçıvanda şahmat üzrə beynəlxalq festivalın keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov görüşdə iştirak edib.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilib





Mayın 3-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov və Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov tədbirdə iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının öz işinə başlaması münasibətilə bütün iştirakçıları təbrik etmiş, şahmatçıları və qonaqları salamlayaraq demişdir: Gənclərin intellektual və mənəvi inkişafında, asudə vaxtlarının səmərəli təşkilində şahmat əvəzsiz vasitədir. Ona görə də Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına xüsusi diqqət göstərilir, uşaq-gənclər şahmat məktəbləri ilə yanaşı, ümumtəhsil məktəblərində də şahmat fənni tədris olunur. Hər il Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalı və digər şahmat yarışları şahmatın inkişafında, bu sahədə gənc istedadların yetişməsində böyük rola malikdir. Biz xüsusilə beynəlxalq şahmat festivalının işinə mühüm əhəmiyyət veririk. Bu mötəbər və ənənəvi yarışa göstərilən böyük maraq, iştirakçı zəka sahiblərinin sayının hər il artması haqlı olaraq Naxçıvanı özünəməxsus şahmat mərkəzinə çevirmişdir.

Ali Məclisin Sədri dəvəti qəbul edib "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalında iştirak etdiklərinə görə şahmatçılara və qonaqlara təşəkkürünü bildirmiş, yarışların sağlam rəqabət və idman mübarizəsi şəraitində keçəcəyinə əminliyini ifadə etmiş, şahmatçılara qələbə arzulamış və festivalı açıq elan etmişdir.

Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinov çıxış edərək demişdir: Azərbaycanda şahmatın qədim tarixi və ənənələri vardır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev şahmatın inkişafına böyük qayğı göstərmişdir. Bu siyasəti Azərbaycan Prezidenti İlham Əliyev də davam etdirir. Cənab İlham Əliyevin Sərəncamı ilə dünyada ilk dəfə olaraq Azərbaycanda şahmatın inkişafı ilə bağlı xüsusi Dövlət Proqramının qəbul edilərək həyata keçirilməsi Beynəlxalq Şahmat Federasiyasına üzv olan ölkələr üçün nümunədir. Bütün bunların nəticəsidir ki, 2016-cı ildə Bakı şəhərində keçirilən, 2 mindən artıq reytinqli şahmatçının iştirak etdiyi Ümumdünya Şahmat Olimpiadası Beynəlxalq Şahmat Federasiyasının tarixində ən yaddaqalan olimpiada oldu. Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafı sahəsində görülən işlər, xüsusilə ümumtəhsil məktəblərində şahmatın tədris

Ardı 2-ci səhifədə





olunması, istedadlı şahmatçıların yetişdirilməsi Naxçıvan şahmat məktəbini ümumdünya şahmat ailəsinin nümunəvi üzvünə çevirmişdir. Kirsan İlümjinov şahmatın inkişafına göstərdiyi qayğıya və yaradılan şəraitə görə Beynəlxalq Şahmat Federasiyası adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Kirsan İlümjinov Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərova "Beynəlxalq təşkilatçı", şahmat üzrə məşqçi-müəllim Toğrul Həsənzadəyə isə "Beynəlxalq usta" diplom və döş nişanlarını təqdim etmişdir.

Azərbaycan Respublikası gənclər və idman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev idmanın inkişafına xüsusi diqqət yetirir. Azərbaycanda hər il beynəlxalq idman yarışları keçirilir. Bu il də ölkəmizdə mötəbər idman yarışları, xüsusilə IV İslam Həmrəyliyi Oyunları keçiriləcəkdir. İdmanın inkişafı sahəsində görülən işlər şahmatı da əhatə etmişdir. Keçirilən şahmat yarışlarının, xüsusilə beynəlxalq şahmat olimpiadasının yüksək səviyyədə təşkil olunması, azərbaycanlı şahmatçıların yarışlarda uğurlu çıxışı bunu bir daha təsdiq etdi. Hər il Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalının keçirilməsi və festivalda reytinqli şahmatçıların iştirakı yarışların əhəmiyyətini daha da artırır.

Tədbirdə çıxış edən Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov diqqətə çatdırmışdır ki, ölkəmizdə şahmatın inkişafı və kütləviliyinin təmin olunmasına xüsusi diqqət yetirilir. Artıq Azərbaycan dünyada həm də şahmatın inkişaf etdiyi ölkə kimi tanınır. Naxçıvan Muxtar Respublikasında da şahmatın inkişafı sahəsində görülən işlər, müasir maddi-texniki və tədris bazasının yaradılması, gənclərin idmanın bu növünə marağının ilbəil artması və istedadlı şahmatçıların yetişməsi böyük məmnunluq doğurur.

Beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov Naxçıvanda şahmat üzrə beynəlxalq yarışların uğurla keçirildiyini bildirmiş, "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının əhəmiyyətindən danışmışdır.

Sonra şahmat festivalının püşkü atılmışdır.

"Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalında 10 ölkədən 300-dən artıq şahmatçı iştirak edir. İsveçrə sistemi üzrə keçiriləcək festivalda iştirak edən şahmatçılar arasında 16 beynəlxalq qrossmeyster və 17 beynəlxalq şahmat ustası vardır.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq səhiyyə xidmətlərini müasir tələblərə uyğunlaşdırmaq, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini daha da yüksəltmək və icbari tibbi sığorta sisteminin tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Sədərək rayonunda icbari tibbi sığorta tətbiq olunsun.

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinə dair tədbirlər planının layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik):

3.1. 2017-ci il iyul ayının 1-dən Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqini həyata keçirsin;

3.2. Sədərək rayonunda yerləşən tibb müəssisələri tərəfindən həyata keçirilməsi mümkün olmayan icbari tibbi sığortanın baza zərfinə daxil olan tibbi xidmətlərin və həmin tibbi xidmətləri göstərəcək tibb müəssisələrinin siyahısı ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim etsin;

3.3. icbari tibbi sığortanın həyata keçirilməsi məqsədi ilə aşağıdakıları əhatə edən elektron portal yaratsın və onun fəaliyyətini təmin etsin:

1) icbari tibbi sığortaya cəlb olunmaq üçün tələb olunan sənədlərin siyahısı və icbari tibbi sığortanın şərtləri barədə məlumat;

2) icbari tibbi sığortaya cəlb olunan əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması;

3) əhalinin sığortalanma prosesinin və qeydiyyatının elektron qaydada həyata keçirilməsi;

4) icbari tibbi sığorta çərçivəsində əhaliyə göstərilən tibbi xidmətlərə dair vahid məlumat bazasının yaradılması;

5) icbari tibbi sığorta çərçivəsində tibb müəssisələri tərəfindən göstərilən xidmətlər üzrə maliyyələşmənin elektron qaydada aparılması;

6) bu Fərmanın 4.1-4.8-ci bəndlərində nəzərdə tutulmuş məlumatlara dair bazanın yaradılması;

7) icbari tibbi sığortaya dair tibbi statistikanın elektron qaydada aparılması;

8) sığortalanma, tibbi xidmətlərin həyata keçirilməsi və tibb müəssisələrinə ödənişlər üzrə elektron hesabatların hazırlanması, monitorinq və nəzarətin aparılması.

4. Aşağıda qeyd olunan dövlət orqanları Agentliyə bu Fərmanla nəzərdə tutulan hədlər daxilində məlumatlara real vaxt rejimində çıxış imkanı yaradılmasını (bu mümkün olmadıqda həmin məlumatların 2 (iki) iş günü müddətində elektron daşıyıcılarda təqdim edilməsini) təmin etsinlər:

4.1. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi:

4.1.0. icbari tibbi sığortaya cəlb olunan şəxslərin şəxsiyyətini təsdiq edən sənəd üzrə məlumatlar;

4.2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

4.2.1. icbari tibbi sığortaya cəlb olunan şəxsin iş yeri və gəlirləri üzrə məlumatlar;

4.2.2. icbari tibbi sığortaya cəlb olunan pensiyaçı və işləməyib sosial müavinət alan şəxslər barədə məlumatlar;

4.2.3. icbari tibbi sığortaya cəlb olunan "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq işsiz statusu almış vətəndaşlar barədə məlumatlar;

4.2.4. icbari tibbi sığortaya cəlb olunan ünvanlı dövlət sosial yardımı alan şəxslər barədə məlumatlar;

4.3. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi:

4.3.1. icbari tibbi sığortaya cəlb olunan hüquqi və fiziki şəxslərin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi barədə məlumatlar;

4.3.2. vergi orqanları tərəfindən qəbul olunmuş gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannaməsi üzrə məlumatlar;

4.4. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi:

4.4.0. icbari tibbi sığortaya cəlb olunan ali təhsil müəssisələrində əyani təhsil alan tələbələr, o cümlədən onların təhsil müəssisəsinə qəbul olunma və təhsil müəssisəsini bitirmə tarixləri barədə məlumatlar;

4.5. Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti:

4.5.0. icbari tibbi sığortaya cəlb olunan müvəqqəti və ya daimi yaşamaq hüququ almış şəxslər, onların məşğulluğu və qeydiyyatı barədə məlumatlar;

4.6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi:

4.6.1. Sədərək rayonunda qeydiyyatda olan şəxslərin ölüm faktının qeydiyyata alınmasına dair məlumatlar;

4.6.2. Sədərək rayonunda doğum faktının qeydiyyata alınmasına dair məlumatlar;

4.7. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi:

4.7.1. icbari tibbi sığortada iştirak edən tibb müəssisələrinin adı, ünvanı, göstərdikləri tibbi xidmətlər;

4.7.2. icbari tibbi sığortada iştirak edən tibb müəssisələrində işləyən həkimlər, orta tibb heyəti, texniki işçilər və xidmət heyəti barədə məlumatlar (onların iş yeri, vəzifəsi, ixtisası, sertifikasiya şəhadətnaməsinə dair məlumatlar göstərilməklə);

4.7.3. Sədərək rayonunda səhiyyə sahəsində mövcud dövlət proqramları ilə əhatə olunan şəxslər barədə məlumatlar, o cümlədən şəxsin xəstəliyinin növü və dövlət proqramı ilə əhatə olunduğu müddət üzrə məlumatlar;

4.8. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

4.8.0. Sədərək rayonunda özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərə verilmiş lisenziyalar üzrə məlumatlar.

5. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Vergilər Nazirliyinə, Təhsil Nazirliyinə, Dövlət Miqrasiya Xidmətinə, Ədliyyə Nazirliyinə, Səhiyyə Nazirliyinə və İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 4.1-4.8-ci bəndlərində nəzərdə tutulan məlumatların Agentliyə təqdim edilməsini təmin etsinlər.

6. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi dövlət (tədbirlər) proqramları ilə əhatə olunan xəstəliklərlə əlaqədar dərman təchizatını qanunvericiliyə əsasən təmin etsin.

7. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi icbari tibbi sığortanın tətbiqi üçün zəruri vəsaitin Naxçıvan Muxtar Respublikasının 2017-ci il üçün dövlət büdcəsindən Agentliyə ayrılmasını təmin etsin.

8. Bütün mərkəzi icra hakimiyyəti orqanlarına, aidiyyəti dövlət qurumlarına, Sədərək Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Agentliyə zəruri köməklik göstərilməsini təmin etsinlər.

9. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 3 may 2017-ci il*

# “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyinin açılış mərasimi keçirilmişdir

*Mayın 3-də Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin açılış mərasimi keçirilmişdir.*





Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək demişdir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə digər sahələr kimi, idmanın inkişafına da böyük diqqət göstərilmiş, idman və bədən tərbiyəsi dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir, müasir idman infrastrukturu yaradılır. Digər idman növləri kimi güləşin inkişafına da hərtərəfli qayğı göstərilir, Azərbaycan güləşçiləri beynəlxalq yarışlarda uğurla çıxış edirlər. Azad Rəhimov “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyini ölkəmizin idman həyatında əlamətdar hadisə kimi dəyərləndirmiş, idmançılara uğurlar arzulamışdır.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədri Azər Zeynalov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyinə start verilməsi münasibətilə tədbir iştirakçılarını salamlamış, idmançılara uğurlar arzulayaraq demişdir: Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, idmana dövlət qayğısı artmış, onun maddi-texniki bazası daha da möhkəmləndirilmişdir. Müstəqil Azərbaycan həm də bir idman ölkəsi kimi beynəlxalq aləmdə tanınmış və olimpiya hərəkatına qoşulmuşdur.



Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturu, o cümlədən Olimpiya-İdman komplekslərinin, idman obyektlərinin, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması gənclərin idmana olan marağını artırmış, istedadlı idmançıların yetişməsini təmin etmişdir. Muxtar respublikada göstərilən dövlət qayğısı nəticəsində idmanın güləş növü ilə məşğul olanların sayı ildən-ilə artır. Azərbaycan güləşçiləri ilə yanaşı, muxtar respublika güləşçiləri də beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında böyük uğurlar qazanırlar. Bu gün start götürəcək sərbəst güləş üzrə yarışların keçirilməsində məqsəd muxtar respublikamızda bu idman növünə uşaq və gənclərdə marağın artırılmasıdır. Əminik ki, yarışlar fəal idman mübarizəsi şəraitində keçəcək, bütün güləşçilər yüksək əzmkarlıq nümayiş etdirəcəklər. Hakimlər isə hər bir görüşün ədalətlə keçirilməsini təmin edəcəklər.

Güləş Federasiyasının sədri Azər Zeynalov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə idmanın inkişafına göstərdikləri diqqət və qayğıya görə bütün idmançılar adından minnətdarlığını bildirmiş, “Heydər Əliyev kuboku” uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə muxtar respublika birinciliyini açıq elan etmişdir.

Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı olmuşdur.

Sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş sərbəst güləş üzrə muxtar respublika birinciliyinin görüşlərinə start verilmişdir. Qeyd edək ki, iki gün davam edəcək birincilikdə 96 pəhləvan 10 çəki dərəcəsində mübarizə aparacaq, qalib gələn idmançılar diplom və qiymətli hədiyyələrlə mükafatlandırılacaqlar.

**“Şərq qapısı”**

# Naxçıvan Dövlət Televiziyasına və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə xidməti avtomobillər təqdim olunub





***Mayın 3-də Naxçıvan Dövlət Televiziyasına və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə xidməti avtomobillər təqdim olunub.***

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək deyib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə Naxçıvan Dövlət Televiziyası və Radiosu böyük inkişaf yolu keçib. Son 20 ildə teleradio müstəqil kanalda yayımlanmağa başlayıb, televiziyanın maddi-texniki bazası xeyli möhkəmləndirilib. Dövlət televiziyasının və radiosunun efir vaxtı 18 saatadək artırılıb, teleradionun internet üzərindən yayımı təşkil edilib. Yaradılan şərait muxtar respublikanın iqtisadi inkişafını, sosial mədəni tərəqqisini və turizm potensialını bütün dünyada təbliğ etməyə imkan verir. Bu gün təqdim olunan “Toyota” markalı avtomobil televiziyanın maddi-texniki bazasını daha da gücləndirməklə yanaşı, həm də səyyari çəkiliş imkanlarını artıracaqdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli Naxçıvan teleradiosunun hərtərəfli inkişafına göstərdiyi yüksək diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından dərin minnətdarlığını bildirib.

Məlumat verilib ki, “Toyota” markalı avtomobil yüksək texniki imkanlara malikdir. Avtomobildən səyyari çəkilişlərdə və televiziya avadanlıqlarının daşınmasında istifadə ediləcəkdir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə də yerli istehsal olan “NAZ-Lifan-620” markalı 4 xidməti avtomobil təqdim olunub.

Qeyd olunub ki, avtomobillər xidmətin fəaliyyətinin güclənməsinə və işlərin daha rahat təşkilinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik Elxan Əliyev avtomobillərin təqdimatına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə kollektiv adından minnətdarlıq ediblər.

**“Şərq qapısı”**

## “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfrans keçiriləcək

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Naxçıvan şəhərində “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfrans keçiriləcək.***

` Bu il iyul ayının 7-8-də keçirilməsi nəzərdə tutulan tədbirin təşkilatçıları AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, “Naxçıvan” Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsidir.

Tarix, coğrafiya, arxeologiya, etnoqrafiya, folklor, dilçilik, ədəbiyyat, turizm, mədəniyyət, memarlıq, incəsənət sahələrində araşdırma aparan tədqiqatçıların məruzə mətnləri 31 may tarixinədək *naxcivanturkislam@gmail.com* elektron poçt ünvanı vasitəsilə qəbul ediləcək.

Beynəlxalq konfransda iştirak etmək istəyənlər tədbirlə bağlı bütün məlumatlarla AMEA Naxçıvan Bölməsinin *ameanb.nakhchivan.az* veb saytında tanış ola bilərlər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

# Yeni monoqrafiya işıq üzü görüb

***Muxtar respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində əhalinin rifah halı yaxşılaşır və bu, əmək potensialının formalaşmasına öz müsbət təsirini göstərir. Bu baxımdan əmək potensialından səmərəli istifadəsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi aktual məsələlərdən biridir.***

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun İqtisadiyyat şöbəsinin müdiri Sevinc Cabbarovanın rus dilində geniş oxucu kütləsinə təqdim etdiyi “Naxçıvan Muxtar Respublikasında əmək potensialının formalaşması və istifadəsi” adlı monoqrafiyası bu mənada, iqtisadi inkişafın müasir mərhələsində aktual tədqiqat əsəri kimi diqqəti cəlb edir.

Monoqrafiyanın “Naxçıvan Muxtar Respublikasında əmək potensialının formalaşması və istifadəsinin nəzəri-metodoloji əsasları” adlanan birinci fəslində əmək potensialının formalaşması amilləri və ondan səmərəli istifadəyə demoqrafik dəyişikliklərin təsiri öz əksini tapıb.

Yeni nəşrin ikinci fəsli “Naxçıvan iqtisadi rayonunda əmək potensialından istifadə vəziyyətinin təhlili və iqtisadi qiymətləndirilməsi” adlanır. Burada Naxçıvan iqtisadi rayonunda əhalinin əmək fəallığına sosial-iqtisadi inkişafın təsiri, məşğulluğun inkişaf vəziyyəti tədqiq edilib.

Tədqiqat işinin “Naxçıvan iqtisadi rayonunda əmək potensialının idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətləri” adlı üçüncü fəslində yeni iqtisadi münasibətlər şəraitində Naxçıvan iqtisadi rayonunda innovasiyaların əmək prosesində idarə olunması təhlil edilib. Monoqrafiyada əmək potensialının səmərəli istifadə olunmasında regional klasterlər və onların rolu araşdırılıb, xarici ölkələrin təcrübəsi öyrənilib, onların tətbiqi, təkmilləşməsi istiqamətləri və alınmış nəticələr təhlil olunub.




Monoqrafiyada əmək potensialının formalaşması amilləri nəzəri baxımdan tədqiq edilib və sistemləşdirilib. Əmək potensialının mövcud vəziyyəti, iqtisadi qiymətləndirilməsi və inkişaf imkanları şərh edilib. Yeni nəşrdə əmək potensialından istifadəsinin təkmilləşdirilməsi məsələləri hərtərəfli tədqiq olunub.

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

***Bu gün Naxçıvan şəhərində müxtəlif sənət növləri ilə məşğul olan ustalar, bu ustaların fəaliyyət göstərdiyi emalatxanalar çoxdur. Ara-sıra belə emalatxanalardan yolumuzu salanda son illərdə muxtar respublikada sənətə və sənətkara göstərilən diqqət və qayğının müsbət nəticələrinin şahidi olur, müxtəlif xalq sənətkarlığı növləri üzrə ərsəyə gələn sənət nümunələrinə böyük heyranlıqla tamaşa edirik. Sevindirici haldır ki, əvvəllər unudulmaqda olan xalq sənətkarlığı sahələri bu gün dirçəldilir və bu sənətlərin gələcək nəsillərə ötürülməsi üçün bir sıra işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı, 2012-ci ilin Naxçıvan Muxtar Respublikasında "Milli dəyərlər ili" elan edilməsi buna parlaq sübutdur.***

*Xalq yaradıcılığı*

## Cansız ağac parçasından belə, mükəmməl sənət əsəri yaratmaq olar

### *Yetər ki, şərait, həvəs və istedad olsun*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2015-ci ildə Naxçıvanda xalq yaradıcılığı sərgisinin açılışında çıxış edərək demişdir: ***"Milli dəyərləri yaşatmaq xalq tarixini yaşatmaq deməkdir. Əgər hər bir xalq öz kimliyini ortaya qoymaq istəyirsə, ilk növbədə, milli dəyərlərinə istinad etməlidir".***

Bütün bunlar ona görə edilir ki, böyük istedada malik olan xalqımızın tarixin dərin qatlarından süzülüb gələn sənət bulaqları tükənməsin, daim çağlasın, insanlara zövq bəxş etsin.

Ötən günlərdə yolumuzu belə ünvanlardan birinə – Naxçıvan şəhərində yerləşən xalq yaradıcılığı emalatxanasına saldıq. Qeyd edək ki, bu ünvan bir neçə sənət növü üzrə emalatxanaları özündə birləşdirir. Bura daxil olan hər kəs qaynar iş prosesinin şahidi olur. Bir otaqda xalçaçı qızların qurduğu hanalar görünür, o biri tərəfdə isə ağacoyma sənəti ilə məşğul olan ustaların dəzgahlarından çıxan səslər eşidilir. Ağacoyma ustalarının emalatxanalarından müxtəlif ağac növlərinin kəsilməsindən yaranan rayihə, boya, yapışqan qoxusu gəlir. İnsan özünü əsrlər öncəsində, qədim bir şəhərin sənətkarlıq məhəlləsində hiss edir. Bu ilk təəssürat bizdə burada görülən işlərlə maraqlanmaq, el sənətkarlarının iş prosesi ilə tanış olmaq marağı yaradır.

Emalatxanalardan birində ağacoyma sənəti ilə məşğul olan Şahin Həsənovla qarşılaşdıq. Onunla həmsöhbət olduq. Söhbət zamanı məlum oldu ki, atası ilə birgə çalışdığı bu emalatxana onlara bir neçə il öncə dövlətimiz tərəfindən verilib. Onun bu sənətə yiyələnməsində atasının rolu böyük olub. Hazırda 31 yaşı olan Şahin 15 yaşından bu sənətlə məşğul olur. Atası Akif Həsənzadə Naxçıvanın bu sahədə ən tanınmış sənətkarlarındandır.

Şahin ustanın dediklərindən: "Uşaq vaxtlarımda atam məni tez-tez özü ilə birlikdə iş yerinə apardı. Hələ o vaxtlar balaca taxta parçalarının üzərində cızma-qara edərdim. Sonralar taxtadan müxtəlif fiqurlar hazırlayar, cürbəcür modellər düzəltməyə çalışardım. Zaman keçdikcə bu sənətə marağım daha da artdı, ona görə də atamla birlikdə işləməyi qərara aldım. İlk əl işimi ən əziz xatirə əşyası kimi hələ də saxlayıram".

Şahin usta onu da dedi ki, ağacoyma sənəti çətin sənətdir və insandan böyük zəhmət, həvəs, dəqiqlik, ən əsası da bacarıq tələb edir. Ola bilər ki, uzun müddət bu işlə məşğul olub bütün incəlikləri öyrənəsən, ancaq əgər istedadın yoxdursa, bu sənətin zirvəsinə yüksəlmək, öz əl işlərinlə insanları heyrətləndirmək qeyri-mümkündür. Başqa sözlə, ağacdan əl işini çox adam düzəldər, ancaq az sayda insan ağacdan düzəltdiyi əşyada öz düşüncələrini, dünyagörüşünü, hər hansı bir ideyanı əks etdirə bilər. Bütün sənətlər insanları düşündürmək üçün yaranıb. Ağacoyma sənətinin də dərinliklərinə varanda görürsən ki, əlində yonduğun ağacın hər bir hissəsində bir-birinə bənzəməyən min cür naxış var. Təbiətin yaratdığı bu mükəmməl bənzərsizliyin içində əgər bu sənətlə məşğul olan usta özünü tapa bilirsə, demək, o sənətin sirli-sehrli dünyası da onun üçün sonuna qədər açılıb. Yox, əgər əlindəki ağac parçasına yalnız cansız bir əşya kimi baxılarsa, onda nə qədər üzərində zəhmət çəkilsə də, arzulanan nəticə əldə olunmayacaq. Yəni o bir ağac parçası kimi də qalacaq. Bu mənada, sənətkar bütün varlığıyla gördüyü işə, əlindəki ağac parçasının bir sənət nümunəsinə çevriləcəyinə inanmalıdır. Bax elə o zaman hər şey istədiyin kimi olacaq.



Ağac ustaya tez tabe olan, tez yonulan, tez işlənə bilən materialdır, ancaq hansı növ ağacı hansı işdə istifadə edəcəyini də bilməlisən. Hər bir ağacın öz tonu, öz ağırlığı, öz nəfəsi var. Burada təxəyyül çox söz deyir. Rənglərin sirrinə hakim olan bir ustanın əlindən çıxan sənət əsərinin uğur qazanacağı da şübhəsizdir.

Sərgilərdə tamaşaçıların reaksiyasını izlədiyini deyən Şahin usta qeyd etdi ki, insanların ağacdan düzəltdiyi işlərə baxıb yaxşı sözlər deməsi onu çox sevindirir. O zaman hiss edir ki, bir sənətkar kimi insanlara lazımdır.

Müasir dövrdə alətlərin, boyaların da çox kara gəldiyini deyən Şahin bildirdi ki, indi bunlar sayəsində ustaların işi çox asanlaşıb. Alətlər, boyalar, yapışqanlar əlçatandır və tez tapmaq olur. Ancaq onlardan da yerində istifadə etmək lazımdır. Əgər bir boyadan həddindən artıq istifadə etsən, o iş süni alınacaq və mağazalarda satılan sənaye üsulu ilə hazırlanan əşyalardan heç nə ilə fərqlənməyəcək. Bir sözlə, ərsəyə gətirdiyin hər bir sənət nümunəsində insanın yaradıcılıq həvəsi və duyğuları öz əksini tapmalıdır. Əgər bunu bacarırsansa, demək, sənətdə hər hansı bir mərhələni adlaya bilmisən.

Onu da qeyd edək ki, hər il ölkəmizin paytaxtı Bakı şəhərində, eləcə də xalq yaradıcılığının inkişaf etdirildiyi Lahıc və Şəkidə Şahin Həsənovun sənətkarlıq nümunələri nümayiş etdirilir. Ancaq onun sənət üfüqləri ölkəmizin sərhədləri ilə məhdudlaşmayıb. Onun əsərləri Fransada, İran İslam Respublikasında müxtəlif sənət sərgilərində nümayiş olunub. Naxçıvan Muxtar Respublikasında da təşkil edilən el şənliklərində, sərgilərdə Şahin ustanın əl işlərinə böyük maraq göstərilir.

Milli köklərə, milli dəyərlərə qayıdış hər kəsi düşündürməlidir. Milli dəyərləri yaşatmaq xalqın tarixini yaşatmaq deməkdir. Əgər hər bir xalq öz kimliyini ortaya qoymaq istəyirsə, ilk növbədə, milli dəyərlərinə istinad etməlidir. Hər bir xalqın tarixi onun yaratdığı sənətkarlıq nümunələrində yaşayır. Xalq sənəti bəşəriyyətin ilkin yaranış dövründən başlayaraq bu günə kimi müxtəlif inkişaf mərhələləri keçib. Əl əməyi ilə hazırlanan əşyalar, məişət avadanlıqları sonralar həmin dövrlərdən xəbər verən maddi-mədəniyyət nümunələrinə çevriliblər. Bu gün Naxçıvanda milli dəyərlərimizin tərkib hissəsi olan xalq sənətkarlığı sahələrinin bərpa olunması da bu torpaqda tarixən formalaşmış zəngin tarixi-mədəni irsin yaşadılması kimi mühüm məqsədə xidmət edir. Sevindirici haldır ki, indi muxtar respublikada el sənətlərini yaşadan, xalqımızın min illər ərzində formalaşan bədii-estetik zövqünü öz əsərlərində əks etdirən gənclərimiz çoxdur. Bütün sənət növlərinə gənclərin marağının artması isə bu sahəyə göstərilən dövlət qayğısı sayəsində mümkün olub. Min illərin yadigarı olan xalq sənətkarlığı bu gün olduğu kimi, gələcəkdə də yaşadılacaq, nəsildən-nəslə qiymətli bir miras kimi ötürüləcəkdir.

**Nail ƏSGƏROV**

## "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının ilk turu yekunlaşıb



***Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalına start verilib.***

Şahmat festivalı çərçivəsində zəka sahibləri 3 qrupun iştirakçısı olacaqlar. Belə ki, reqlamentə əsasən, beynəlxalq festivalda güclülərin ("A" qrupu), əmsalı az olanların ("B" qrupu) və uşaqların ("C" qrupu) yarışı keçiriləcək. Artıq festivalın "A" qrupunda iştirak etmək üçün 47 şahmatçı müraciət edib. İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq yarışda hər iştirakçıya 40 gediş üçün 90 dəqiqə, partiya başa çatana qədər hər şahmatçıya 30 dəqiqə və hər gediş üçün əlavə 30 saniyə vaxt ayrılır.

"Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının ilk turu artıq yekunlaşıb və nəticələr məlum olub.

"A" qrupunda 9 ölkənin – Belçika, Belarus, Gürcüstan, Almaniya, Rusiya, Türkiyə, Ukrayna, Özbəkistan və Azərbaycanın 47 zəka sahibinin gərgin mübarizəsi elə ilk turdan özünü büruzə verib. Turnirin ən iddialı iştirakçısı, eyni zamanda yarışın ən yüksək reytinqli şahmatçısı, azərbaycanlı qrossmeyster Eltac Səfərli (2668) FİDE ustası Əhməd Əhmədzadəyə (2357) ilk turda məğlub olub. Rusiyalı qrossmeyster Sergey Volkov (2617) isə yarışa qələbə ilə başlayıb. O, ilk turda Aydın Süleymanlıdan (2356) üstün olub. Turnirin ən yüksək reytinqli şahmatçısından biri olan Nicat Ağayev (2347) Almaniya təmsilçisi İqor Xenkinlə (2568) xalları yarı bölüb. Turun digər maraqlı görüşündə azərbaycanlı qrossmeyster Zeynəb Məmmədyarova (2321) ukraynalı qrossmeyster Eldar Qasanovla (2484) "sülh" bağlayıb.

"A" qrupunda mübarizə aparan 4 naxçıvanlı şahmatçıdan ilk qələbəni FİDE ustası Pərviz Qasımov (2318) özbəkistanlı beynəlxalq usta Curabek Xamrakulovu (2476) məğlub edib. Qrossmeyster Toğrul Həsənzadə (2347) azərbaycanlı qrossmeyster Azər Mirzəyevə (2543), Urfan Sevdimalıyev (2366) isə Səbinə İbrahimovaya (2198) məğlub olub.

İlk turdan sonra 14 zəka sahibi maksimum xalla turnir cədvəlinə başçılıq edir.

Əmsalı nisbətən aşağı olan şahmatçıların mübarizə apardığı "B" qrupunda isə ölkənin müxtəlif regionlarından 92 zəka sahibi yarışır. Artıq ilk turdan sonra 42 şahmatçı maksimum xal toplayıb.

"Naxçıvan-2017" Beynəlxalq Şahmat Festivalının "C" qrupunda 157 şahmatçı qüvvəsini sınayır ki, onların da 62-nin beynəlxalq əmsalı 1100-dən çoxdur. İlk iki turdan sonra 75 şahmatçı maksimum xal toplamağa nail olub.

**Ceyhun MƏMMƏDOV**

## Uşaqlar arasında qoruyucu peyvənd həftəsinə start verilib

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq may ayının 1-dən muxtar respublikanın bütün şəhər və rayonlarında 6 yaşadək uşaqların immunlaşdırma həftəsinə start verilib. Müxtəlif səbəblərə görə profilaktik peyvənd təqviminə müvafiq immunlaşdırmadan kənarda qalan uşaqlar həftə ərzində peyvəndlərə cəlb olunacaq.

Bu məqsədlə əvvəllər hər hansı səbəbdən peyvənddən yayınmış uşaqların siyahıları tərtib edilib. İmmunlaşdırma həftəsinin mütəşəkkil və yüksək səviyyədə həyata keçirilməsi üçün bütün müalicə müəssisələri, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi, həmçinin şəhər və rayon gigiyena və epidemiologiya mərkəziləri isə soyuq zəncir prinsipinə əməl olunmaqla profilaktik peyvənd materialları ilə təmin olunublar. Məqsəd muxtar respublika ərazisində yaşayan və qeydiyyata alınan uşaqların bütünlüklə profilaktik peyvənd olunması və bununla bərabər, həmin uşaqların mövcud infeksion xəstəliklərdən qorunmasıdır. Hazırda bu iş peyvənd təqviminə uyğun davam etdirilir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında xüsusi həkim və tibb bacıları əhali arasında peyvəndlər, onların əhəmiyyəti, vaksinasiyanın vaxtında aparılması barədə səhiyyə maarifi işi aparır, onları immunlaşmadan kənarda qalmanın yaradacağı fəsadlar barədə məlumatlandırırlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın baş məsləhətçi-pediatrı İbrahim Ağayev bildirib ki, 2013-cü ildə qəbul edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"na uyğun olaraq körpə doğulandan 1 yaşına qədər ayda iki, 2 yaşına qədər rübdə bir, 2-3 yaşlarında altı ayda bir, 3 yaşından sonra ən azı ildə bir dəfə kompleks müayinələrdən keçirilməlidir.

İmmunlaşdırma həftəsi mayın 8-də başa çatacaq, yekun nəticələr Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində təhlil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Əsədullayev Emin İsfəndiyar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Bənəniyarlı Safura Hüseyn qızının adına 05.01.2009-cu ildə verilmiş MH-0010742 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 363